# Azərbaycan statistikası "Konstitusiya və Suverenlik ili"ndə

19 sentyabr 2024-cü il tarixli Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı Azərbaycanın dövlətçilik tarixində mühüm əhəmiyyətə malik olan iki əsas hadisə - Azərbaycan Respublikasının Konstitusiyanın qəbul edilməsinin 30 illiyi və dövlət müstəqilliyinin bərpasının 34-cü ildönümünə təsadüf edir.

Konstitusiyanın hüquq sistemində ali hüquqi qüvvəyə malik olması, onun digər normativ hüquqi aktlar üzərində üstünlüyünü təmin edir. Azərbaycan Respublikasının Konstitusiyası insan hüquq və azadlıqlarını tanımaqla kifayətlənmir, eyni zamanda onların təminat sistemini də müəyyənləşdirir.

Suverenlik dövlətin daxili və xarici işlərdə müstəqilliyini və tam səlahiyyətə malik olmasını təmin edən fundamental prinsipdir. Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra Konstitusiya bu suverenliyi möhkəmləndirmiş və hüquqi əsaslar yaratmışdır.

Konstitusiya və suverenlik Azərbaycan dövlətinin dayaqlarıdır və bu dəyərlərin qorunması ölkənin gələcək inkişafı üçün mühüm rol oynayır. Hər bir vətəndaş konstitusiyanı öyrənməli, onun prinsiplərinə hörmət etməli və dövlətin suverenliyini qorumaq üçün çalışmalıdır. "Konstitusiya və Suverenlik ili" bu dəyərlərin daha da möhkəmlənməsinə və gələcək nəsillərə ötürülməsinə mühüm töhfə verəcəkdir. Bu qərar həm ölkəmizin milli müstəqilliyinin möhkəmlənməsini, həm də dövlət idarəçiliyində şəffaflıq və inkişaf yolunda atılan addımları özündə ehtiva edir.

Belə bir tarixi ildə Azərbaycan statistikasının rolu və əhəmiyyəti xüsusilə diqqətə layiqdir.

Statistika sadəcə rəqəmlər toplusu deyil, dövlətin inkişaf yolunu, xalqın sosial rifahını və iqtisadi sabitliyini əks etdirən mühüm göstəricidir. Dövlət orqanlarının qəbul etdiyi hər bir qərarın, həyata keçirilən hər bir proqramın əsasında etibarlı statistik məlumatlar dayanır. "Konstitusiya və Suverenlik ili"ndə də rəsmi statistika Azərbaycanın sosial-iqtisadi mənzərəsini bütün dolğunluğu ilə təqdim edir.

Statistika dövlətin iqtisadi, sosial və demoqrafik inkişafının dəqiq mənzərəsini təqdim edən əsas alətdir. Məhz rəsmi statistik göstəricilər sayəsində hökumət planlaşdırma, idarəetmə və islahat proseslərini daha səmərəli şəkildə



həyata keçirir. Bu baxımdan "Konstitusiya və Suverenlik ili" çərçivəsində toplanan və ictimaiyyətə açıqlanan məlumatlar Azərbaycanın iqtisadi potensialını, sosial rifahını və milli inkişaf strategiyasını əks etdirir.

Müstəqilliyin ilk illərində çətinliklərlə üzləşən Azərbaycan bu gün dayanıqlı iqtisadi artım tempinə malikdir. Statistika sübut edir ki, qeyri-neft sektoru ölkə iqtisadiyyatında aparıcı sahələrdən birinə çevrilib, ixracda diversifikasiya siyasəti uğurla həyata keçirilir. Regionlarda yeni istehsal müəssisələrinin açılması, kənd təsərrüfatının inkişafı, xidmət sahələrinin genişlənməsi statistikanın ortaya qoyduğu əsas nailiyyətlərdəndir.

Azərbaycan əhalisinin sayı 10 milyon nəfəri ötərək dinamik artımı ilə diqqət çəkir. Statistika göstərir ki, urbanizasiya prosesi sürətlənir, paytaxtla yanaşı bölgələrdə də yaşayış və məşğulluq imkanları genişlənir. İqtisadiyyatın əsas sahələrində - kənd təsərrüfatı, sənaye və xidmət sektorunda məhsuldarlıq yüksəlir, ixrac həcmləri artır. Sosial göstəricilərdə isə işsizliyin azalması, təhsil və səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəlməsi ön plana çıxır.

Ölkəmizin suverenliyinin bərpasından sonrakı dövr statistik baxımdan böyük dönüşlərlə yadda qalıb. Əgər müstəqilliyin ilk illərində əsas problem iqtisadi sabitlik və sosial təminat idisə, bu gün Azərbaycan rəqəmsal texnologiyalar, enerji təhlükəsizliyi və regional nəqliyyat layihələri ilə seçilir. Statistik məlumatlar göstərir ki, son illərdə qeyri-neft sektorunun artımı ümumi daxili məhsulda xüsusi paya sahibdir. Bu, ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təsdiqləyir.

"Konstitusiya və Suverenlik ili"ndə açıqlanan statistik məlumatlar Azərbaycanın iqtisadi gücünü, sosial inkişafını və dövlətçilik yolunda əldə etdiyi uğurları bir daha təsdiqləyir. Bu rəqəmlər, əslində, sadəcə göstərici deyil, həm də müstəqilliyimizin möhkəm dayaqlarını, xalqımızın sabaha olan inamını ifadə edir.

"Konstitusiya və Suverenlik ili" çərçivəsində statistik məlumatların ictimaiyyətə təqdim olunması, onların təhlili və yayılması həm dövlət qurumları, həm də vətəndaş cəmiyyəti üçün əhəmiyyətlidir. Bu, Azərbaycanın dövlətçilik ənənələrinin möhkəmlənməsinə, şəffaflığın təmin olunmasına və gələcək inkişaf istiqamətlərinin düzgün müəyyənləşdirilməsinə xidmət edir. Azərbaycan iqtisadiyyatı artıq təkcə neft amilinə bağlı deyil. Qeyri-neft sektoru ölkə iqtisadiyyatında ön plana çıxıb. Regionlarda sənaye parklarının, kənd təsərrüfatı müəssisələrinin, xidmət sahələrinin genişlənməsi rəsmi rəqəmlərdə də öz əksini tapır.

Statistika dövlətin güzgüsüdür. O, yalnız rəqəmləri deyil, həm də real vəziyyəti, xalqın rifahını və iqtisadiyyatın gələcəyini əks etdirir. Məhz etibarlı statistik məlumatlar əsasında qəbul edilən qərarlar ölkə siyasətini daha səmərəli və məqsədyönlü edir.

**Ayaz İSGƏNDƏROV,**
**Qəbələ Statistika İdarəsini rəisi.**

# Ümumdünya Statistika Günü

Hər 5 ildən bir, 20 oktyabr tarixində qeyd olunan Ümumdünya Statistika Günü, Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə 2010-cu ildənetibarən bütün dünyada statistikanın cəmiyyətlərdəki, iqtisadiyyatda və idarəetmədəki əhəmiyyətinə diqqət çəkmək üçün təsis edilib.

Bu günün məqsədi keyfiyyətli rəsmi statistikanın davamlı inkişaf üçün necə mühüm rol oynadığını göstərmək, statistik məlumatların şəffaf, dəqiq və istifadəyə yararlı olmasının ictimai qərarların qəbulunda nə qədər vacib olduğunu vurğulamaqdır.

Statistika təkcə rəqəmlər toplusu deyil - o, cəmiyyətlərin güzgüsüdür. Əhalinin sayı, iqtisadi artım, işsizlik səviyyəsi, səhiyyə və təhsil göstəriciləri. Sosial rifah və ekologiya sahəsində toplanan məlumatlar dövlət siyasətinin formalaşdırılmasında və resursların düzgün bölüşdürülməsində həlledici rol oynayır.

Azərbaycanda statistika sistemi uzun illərdir ki, ardıcıl şəkildə təkmilləşdirilir. Dövlət Statistika Komitəsi ölkənin sosial-iqtisadi göstəricilərinin toplanması, emalı və yayılması sahəsində əhəmiyyətli işlər görür. Elektron statistik hesabatların təqdim edilməsi, açıq məlumat platformalarının istifadəyə verilməsi və beynəlxalq statistika sistemləri ilə uyğunlaşma bu sahədə atılan əsas addımlardandır. Cəmiyyətin inkişafı üçün etibarlı məlumat bazasına malik olmaq mühüm şərtdir. Bu baxımdan, statistik orqanların müstəqilliyi, şəffaflığı və peşəkarlığı statistikaya ictimai etimadı formalaşdıran əsas amillərdəndir. BMT-nin qəbul etdiyi "Rəsmi Statistika üzrə Fundamental Prinsiplər" bu sahədə etik və peşəkar davranış standartlarını müəyyən edir və dünya ölkələrinə statistik fəaliyyətlərini bu prinsiplər çərçivəsində aparmağı tövsiyə edir.

Ümumdünya Statistika Günü təkcə statistiklərə deyil, bütün cəmiyyətlərə bağlı bir gündür. Çünki inkişaf üçün düzgün qərarlar yalnız etibarlı və obyektiv məlumatlar əsasında verilə bilər. Gəlin bu gün statistik məlumatların cəmiyyətin rifahı və gələcək nəsillər üçün necə həyatı əhəmiyyət kəsb etdiyini bir daha dərk edərək bu sahədə çalışan mütəxəssislərin zəhmətini yüksək qiymətləndirək.

**Qəbələ Rayon**
**Statistika İdarəsi.**

# Müstəqilliyin Bərpası Günü

**18** oktyabr 1991-ci il Azərbaycan dövlətçiliyi tarixində hüquqi və siyasi baxımdan fundamental dönüş nöqtəsi kimi qiymətləndirilir. Həmin gün Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul edərək ölkənin müstəqilliyini bərpa etmişdir. Bu sənəd normativ-hüquqi akt olaraq yalnız siyasi bəyanat xarakteri daşımamış, eyni zamanda dövlətin sa zamanda dünya dövlətləri tərəfindən tanındı və ölkə 1992-ci ildə Birləşmiş Millətlər Təşkilatına üzv qəbul edildi. Beləliklə, Azərbaycanın beynəlxalq hüququ subyektliyi rəsmən tanındı və Konstitusiya Aktının müddəaları beynəlxalq səviyyədə təsdiqini tapdı.

Müstəqilliyin bərpasından sonra qəbul edilən 1995-ci il Konstitusiyası Azərbaycan Respublikasının dövlət quruluşunu və hüquqi əsaslarını müstəqil dövlət kimi möhkəmləndirdi. Sovet hüquqi sistemindən qalan müddəalar aradan qaldırılaraq milli hüquq sistemi formalaşdırıldı. Bununla da müstəqilliyin bərpası yalnız siyasi suverenlik aktı deyil, həm də hüquqi dövlət quruculuğunun başlanğıcı oldu.

beynəlxalq hüququn subyekti kimi statusunu təsbit etmişdir.

Konstitusiya Aktı özündə bir neçə mühüm hüquqi məqamı ehtiva edirdi. Əvvəla, Azərbaycan Respublikasının 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edilərək dövlətçilik ənənələrinin davamlılığı təmin olundu. Bu yanaşma hüquqi varislik prinsipinə əsaslanaraq müstəqilliyin "yeni elan" yox, "bərpa" xarakterini vurğulayırdı. İkincisi, aktda dövlətin siyasi sisteminin əsas prinsipləri müəyyənləşdirilmiş, suverenliyin daxili və xarici hüquqi təminatı ortaya qoyulmuşdur.

1991-ci ilin dekabrında keçirilmiş ümumxalq referendumu isə qəbul olunmuş aktın legitimliyini gücləndirmişdir. Referendum nəticələri göstərdi ki, dövlət müstəqilliyi yalnız parlamentin qəbul etdiyi hüquqi sənədlərlə deyil, həm də xalqın ümumi iradəsi ilə təsdiqlənmişdir. Bu, beynəlxalq hüququn öz müqəddəratını təyinetmə prinsipinin ən aydın təzahürlərindən biri idi.

Azərbaycanın müstəqilliyi qı-

Uzun müddət 18 oktyabr "Milli Müstəqillik Günü" kimi qeyd edilmiş, lakin 2021-ci ildə qanunvericiliyə edilən dəyişikliklə bu günün adı "Müstəqilliyin Bərpası Günü" olaraq rəsmiləşdirilmişdir. Bu terminoloji dəyişiklik hüquqi və tarixi baxımdan mühüm əhəmiyyət kəsb edir, çünki 1991-ci ildə Azərbaycan xalqı yeni dövlət yaratmamış, mövcud dövlətçilik ənənəsini hüquqi müstəvidə bərpa etmişdir.

Beləliklə, 18 oktyabr müasir hüquqi dövlətdə yalnız tarixi yaddaşın simvolu deyil, həm də müstəqilliyin hüquqi əsaslarının möhkəmləndirilməsi zərurətini xatırladan əlamətdar gün kimi dəyərləndirilməlidir.

**Nərmin AĞAYEVA,**
**Qəbələ rayon prokurorunun köməkçisi, II dərəcəli hüquqşünas.**

# Tibb və Təhsildə Birgə İnteqrasiya - I Qəbələ Konfransı

20 Sentyabr 2025 ildə Qəbələ Mədəniyyət Mərkəzində ümummilli lider Heydər Əliyevin əbədi xatirəsinə həsr edilmiş tibb və təhsildə birgə inteqrasiya - I Qəbələ konfransı keçirildi.

Öncə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi və Azərbaycan dövlətinin suverenliyi, ərazi bütövlüyü və torpaqlarının düşmən tapdağından azad olunması uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi və Ümummilli Lider Heydər Əliyevin əbədi xatirəsi sayğı duruşu ilə yad edildi.

Daha sonra Ulu öndər Heydər Əliyevin ömür yolundan bəhs edən video çarx nümayiş olundu.

Tədbirdə 44 günlük Vətən müharibəsi şəhidi Baş leytenant hərbi həkim Aqşin Ənvərlinin anası Dilrubə xanıma söz verildi. Həkim oğlunun qəhrəmanlığından danışan Dilrubə xanım çıxışında Tibb və Təhsildə Birgə İnteqrasiya layihə müəllifi Jalə xanıma xeyir-duasını verdi.

Daha sonra söz Antiterror əməliyyatlarında şəhid olmuş mayor Xəyyam Səmədovun atası Mirazım Səmədova verildi.

Tibb və təhsildə birgə inteqrasiya layihəsinin məqsədi haqqında layihə müəllifi Jalə Mirsaab konfrans iştirakçılarına ətraflı məlumat verdi.

Tibb və Təhsil prosesinin elmi tədqiqatla əlaqələndirilməsi, elm və təhsilin istehsalatla inteqrasiyasının gücləndirilməsi, tələbə, magistrant və doktorantlarda tədqiqatçılıq və peşə fəaliyyəti üçün zəruri olan praktiki bilik, bacarıq və vərdişlərin formalaşdırılması, müxtəlif elm sahələrində elmi yeniliklərin və innovasiyaların tədris prosesinə tətbiqi, müvafiq ixtisas sahələri üzrə aparıcı mütəxəssislərin tədris prosesinə cəlb edilməsi və birgə elmi tədqiqatların aparılması məqsədi ilə elmi təşkilatları, mərkəzləri və təhsil,tibb müəssisələri arasında əlaqələri gücləndirməyə müvəffəq olması üçün həyata keçirilir.

Daha sonra layihə spikerlərinin çıxışları dinlənildi.



Pedaqogika üzrə fəlsəfə doktoru, alim Sədaqət Rəhimova, Oksford Akademiyasının akademiki, "Alternativ Psixologiya" elminin müəllifi, Tibbi-biologiya elmləri doktoru, professor, Oksford Akademiyasının Departament rəhbəri, Beynəlxalq Ekoenergetika Akademiyasının "Tibbi biologiya və Ekologiya" Departamentinin direktoru İbadov Yaşar Saday oğlu, Azərbaycan Pedaqoji Universitetinin elmi işçisi, əməkdar müəllim Zülfiyyə Vəliyeva, Qəbələ şəhər Təhsil Sektorunun rəhbəri Arifə Bayramova, "Qəbələ səsi" qəzetinin baş redaktoru Azad Məmmədov və digər iştirakçılar çıxış etdilər.

Sonda Ümummili Lider Heydər Əliyevin əbədi xatirəsinə həsr olunmuş Tibb və Təhsildə Birgə İnteqrasiya I Qəbələ Konfransından xatirə şəkilləri çəkdirildi.

**"Qəbələ səsi"**